İstanbul:

# "Can Azərbaycana Canımız fəda" adlı izdihamlı mitinq

**Son günlər Azərbaycan-Ermənistan sərhədində yaşanan gərginliklərlə bağlı Azərbaycan Ordusuna dəstək və düşmən üzərində qələbəni qeyd etmək məqsədilə İstanbulun mərkəzi və ən çox turist qəbul edən bölgələrindən biri olan tarixi Bəyazit Meydanında möhtəşəm mitinq keçirilib. "Ya Qarabağ, ya ölüm" şüarı ilə keçirilən aksiya İstanbul Universitetinin Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi, Turan Ocaqları və Bütöv Azərbaycan Ocaqlarının təşkilatçılığı ilə baş tutub. Azərbaycan və Türkiyə bayraqlarının dalğalandığı mitinqdə Ordumuza dəstək şüarları səsləndirilib, sevinc hissləri ifadə olunub.**



Şəhidlərin xatirəsinə bir dəqiqəlik sükut və hər iki qardaş ölkənin himnləri səsləndirilib. Tədbirdə İstanbul Universiteti Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyinin sədri Anar Can Kıtay tərəfindən türk və ingilis dillərində media üçün açıqlama oxunub. Açıqlamada 1917-ci ildə baş vermiş Bolşevik inqilabı, tarixi Azərbaycan torpaqlarına ermənilərin yerləşdirilməsi, əsrlər boyu ermənilər tərəfindən türk milləti, o cümlədən azərbaycanlılara qarşı törədilən cinayətlər və qətliamlar, Xocalı soyqırımı kimi faktlar barəsində məlumat verilib. Ermənistan hökuməti tərəfindən atılan addımların beynəlxalq hüquq və normalara zidd, insanlığa qarşı cinayət olduğu bildirilib.

Son günlər işğalçılar tərəfindən törədilən təxribatlar və hücumlar nəticəsində uşaqlar da daxil olmaqla xeyli sayda dinc insanın Ermənistanın terrorçu siyasətinin növbəti qurbanı olduğu, Azərbaycan Silahlı Qüvvələrinin düşmənə lazımi cavabı verdiyi qeyd edilib. "Son bir neçə gün ərzində şanlı Azərbaycan Ordusunun Ermənistanın təxribatçı siyasətinə cavabı nəticəsində bir sıra torpaqlarımız düşmən işğalından azad edilib. Ermənistan tərəfindən həyata keçirilən bu xain terror hücumlarının əsas məqsədi Dağlıq Qarabağ probleminin həlli ilə bağlı vaxtı öz lehinə uzatmaq və zəbt edilmiş əraziləri genişlətməkdir. Daima "Bir millət, iki dövlət" prinsipi ilə hərəkət edən Türkiyə ilə Azərbaycan qardaşlığı bu dəfə də özünü göstərib. Ermənistan başda olmaqla ona dəstək verən bütün dövlətlərin insanlığa zidd, faşist, işğalçı və insan hüquqlarını heçə sayan dövlət siyasətini şiddət və təəssüflə qınayır, bütün dünya ictimaiyyətini Azərbaycanın haqlı davasına ona dəstək olmağa çağırırıq", - deyə o qeyd edib.

Turan Ocaqları başqanı Ercan Urçar Türkiyə xalqının Can Azərbaycan üçün canını fəda etməyə hazır olduğunu dilə gətirib. Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyinin fəxri sədri Rəşid Mustafazadə bu cür dəstək aksiyalarının dünyanın hər yerində davam etdirilməsi zərurətini vurğulayaraq Azərbaycan xalqının öz doğma torpaqlarını işğaldan azad etməyə hazır olduğunu qeyd edib. Mitinqdə Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı, digər dəstəkçi ölkələrin də bayraqları qaldırılıb. İştirakçılar "Şəhidlər ölməz, Vətən bölünməz", "Qarabağ Azərbaycanındır", "Ar olsun Ermənistana", "Qarabağa ədalət" şüarları səsləndiriblər.

Onu da qeyd edək ki, Gəncə və Mingəçevir şəhərlərinin Ermənistan ərazisindən raket atəşinə tutulması xəbəri Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən sürətlə yayılıb. Türkiyə KİV-ləri dinc əhali arasına tələfat və mülki evlərin və obyektlərin dağıntısı ilə nəticələnən Ermənistanın Azərbaycana qarşı raket zərbəsindən istifadə etməsini vandalizm adlandırıblar. Məlumatlar xəbər agentlikləri, telekanallar, eləcə də nüfuzlu qəzetlər vasitəsilə dünya ictimaiyyətinə çatdırılmaqdadır.

Türkiyə Milli Müdafiə Nazirliyi də Azərbaycanla bağlı yeni həmrəylik mesajı paylaşıb. Nazirliyin rəsmi saytında bu dəfə Azərbaycan Ordusuna poetik misralarla da dəstək verilib.

*Eşqimiz, sevdamız*
*könlümüzdədir bizim,*
*Dərdimiz, diləyimiz*
*dərindədir bizim,*
*Taleyimiz bir yazılmış*
*ağ alnımıza,*
*Gücümüz, irfanımız*
*birliyimizdədir bizim!*

"Türkiyə-Azərbaycan" şüarı ilə dövlət bayraqlarımızın qoşa dalğalandığı paylaşıma iki qardaş ölkənin Silahlı Qüvvələrinin birgə təlimlərindən çəkilmiş fotolar əlavə edilib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

**Respublika.- 2020- ci il.- 6 oktyabr.- S. 11.**